AZƏRBAYCAN www.azerbaijan-news.az

# Gələcəyin futbol ulduzları Bakıda

## *Azərbaycan daha bir beynəlxalq turnirə evsahibliyi edir*

Bu gün Bakıda növbəti beynəlxalq turnir - 17 yaşlı futbolçular arasında 34-cü Avropa çempionatı başlayır. Mayın 21-dək davam edəcək qitə birinciliyində 16 ölkənin - Azərbaycan, Belçika, Portuqaliya, İsveç, İngiltərə, Ukrayna, İtaliya, Bosniya və Herseqovina, Almaniya, Hollandiya, Danimarka, Serbiya, Fransa, İspaniya, Şotlandiya və Avstriya milli komandaları iştirak edəcək.

Azərbaycan qitə çempionatını qəbul edən sayca 26-cı ölkə olacaq. Belə bir turniri təşkil etmək hüququnun ölkəmizə verilməsi heç də təsadüfi deyil. Son illər Azərbaycan dəfələrlə ayrı-ayrı idman növləri üzrə beynəlxalq turnirlərə evsahibliyi edib. Bu yarışların təşkili səviyyəsi beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilib və təqdir olunub. Odur ki, UEFA U-17 Avropa çempionatını təşkil etmək üçün Azərbaycanın namizədliyi təbii qarşılanıb və turnir ölkəmizə etibar edilib.

Çempionatın final mərhələsinin ölkəmizdə təşkil olunması haqqında qərar 20 mart 2012-ci ildə UEFA İcraiyyə Komitəsinin İstanbulda keçirilmiş iclasında qəbul olunub. Turnirin yerli təşkilat komitəsi ötən müddət ərzində nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra edib, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib. Stadionlar tələb olunan səviyyəyə çatdırılıb. Çempionat çərçivəsində 31 qarşılaşma Bakı Olimpiya Stadionu, Bakcell Arena, Dalğa Arena və Tofiq İsmayılov adına Suraxanı qəsəbə stadionunda keçiriləcək.






Turnirə ilk dəfə 1982-ci ildə İtaliya evsahibliyi edib. 2000-ci ilədək çempionat 16 yaşadək, 2001-ci ildən etibarən isə 17 yaşadək futbolçular arasında keçirilir. 2014-cü ildən etibarən çempionatın formatında dəyişiklik edilərək komandaların sayı 8-dən 16-ya kimi artırılıb.

İndiyədək keçirilmiş 33 qitə birinciliyi 25 müxtəlif ölkədə təşkil olunub. Rekord Almaniyaya məxsusdur. Bu ölkədə Avropa çempionatı 4 dəfə (1984-cü, 1990-cı, 1997-ci, 2009-cu illər) keçirilib. İtaliya, Fransa, Danimarka, Türkiyə və Belçikanın hər biri 2 dəfə qitə birinciliyini qəbul edib. Macarıstan, Yunanıstan, İspaniya, İsveçrə, Kipr, İrlandiya, Avstriya, Şotlandiya, Çexiya, İsrail, İngiltərə, Portuqaliya, Lüksemburq, Lixtenşteyn, Serbiya, Sloveniya, Slovakiya, Malta və Bolqarıstan da hərəyə bir dəfə bu yarışa evsahibliyi edən ölkələrdir.

İndiyədək 13 komanda Avropa çempionu tituluna sahib çıxıb. Bu baxımdan rekord yarışın 8 qat qalibi İspaniyaya məxsusdur. Millimizin qrupdakı ilk rəqibi olan Portuqaliyanın aktivində 5 qızıl medal var. Almaniya (AFR) və Rusiya (SSRİ) hərəyə 3 dəfə, Hollandiya, İngiltərə, Türkiyə və Fransa hərəyə 2 dəfə çempion olub. Daha 5 komanda - İtaliya, Çexiya (Çexoslovakiya), Polşa, İsveçrə və İrlandiyanın hər biri isə bir dəfə qızıl medallara sahib çıxıb.

Avropa çempionatında yalnız 6 dəfə ev sahibi komanda turnirin qızıl medalını qazanıb. İlk belə uğura elə debüt çempionatında İtaliya millisi nail olub. İki il sonra Almaniya da evsahibliyi etdiyi qitə birinciliyində çempionluğa sahib çıxıb. 1988-ci ildə İspaniya, 2003-cü ildə Portuqaliya, 2004-cü ildə Fransa və 2009-cu ildə Almaniya yığmaları ev sahibi kimi çempion olub. Göründüyü kimi, Almaniya evsahibliyi etdiyi 2 turnirdə qızıl medalları özü qazanıb.

Müxtəlif illərdə Luiş Fiqu, Tyeri Anri, Kriştianu Ronaldu, Ueyn Runi, Toni Kros, Sesk Fabreqas, Jerar Pike kimi futbol ulduzları bu turnirlərdə iştirak ediblər. Odur ki, gələcəyin hansısa dünya ulduzunun məhz Azərbaycanda keçirilən çempionatda parlaması ehtimalı yüksəkdir.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**